NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
DÖVLƏT GÖMRÜK KOMİTƏSİ
İNZİBATİ İDARƏETMƏNİN TƏŞKİLİ BÖLMƏSİ
Daxil olma № 10/30/002462
"20" 07 20 22 il

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

## QƏRAR

**Naxçıvan Muxtar Respublikasının ərazisini tərk edən avtonəqliyyat vasitələrində yanacağın daşınması ilə bağlı əlavə tədbirlər haqqında**

"Azərbaycan Respublikasının ərazisini tərk edən avtonəqliyyat vasitələrində daşınan yanacağın miqdarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 3 avqust tarixli 339 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Müəyyən edilsin ki, Naxçıvan Muxtar Respublikasının ərazisini tərk edən avtonəqliyyat vasitələrinin mühərriklə texnoloji bağlı olan texniki pasportunda nəzərdə tutulmuş baklarında keçirilən benzinin və (və ya) dizel yanacağının hər 1 (bir) litri üçün 0,6 ABŞ dolları məbləğində spesifik gömrük rüsumu alınır.

2. Bu Qərarın 1-ci hissəsində göstərilən məbləğ avtonəqliyyat vasitəsinin mülkiyyətçisi və ya qanunvericiliklə müəyyən edilmiş qaydada idarəetmə hüququ olan şəxs tərəfindən dövlət sərhədindən buraxılış məntəqələrindəki gömrük orqanlarına bank, poçt və ya ödəniş kartı vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının həmin gün üçün müəyyən etdiyi məzənnəyə uyğun olaraq manatla ödənilir.

3. Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi:

3.1. Naxçıvan Muxtar Respublikasının ərazisinə daxil olan xarici minik və yük avtonəqliyyat vasitələrinin yanacaq çənlərindəki yanacağın miqdarını müəyyən etsin.

3.2. Naxçıvan Muxtar Respublikası ərazisini tərk edən xarici minik və yük avtonəqliyyat vasitələrinin yanacaq çənlərindəki yanacağın miqdarını

2.08.2022 / 11.691

müəyyən etsin və muxtar respublika ərazisinə daxil olarkən mövcud olan yanacaqla yaranan fərqdən bu Qərarın 1-ci hissəsində göstərilən məbləğdə spesifik gömrük rüsumunun alınmasını təmin etsin.

3.3. Azərbaycan Respublikasına məxsus dövlət qeydiyyat nişanlarını daşıyan nəqliyyat vasitələrinin sahiblərini muxtar respublika ərazisini tərk edərkən gedəcəkləri təyinat məntəqəsi nəzərə alınmaqla sərfiyyatdan artıq apardıqları avtomobil yanacağına görə ödənişə cəlb etsin.

4. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən yanacaqdoldurma məntəqələri kənd təsərrüfatı və tikinti-quraşdırma işlərində istifadə olunan maşın və texnikaların yanacağa olan tələbatının ödənilməsi məqsədilə muxtar respublika ərazisindən tranzit keçən yük nəqliyyat vasitələrinə maksimum 300 litr yanacaq satılması məhdudiyyətini tətbiq etsinlər.

5. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** — **Səbuhi Məmmədov**

ÜMUMİ ŞÖBƏ

Naxçıvan şəhəri, "20" iyul 2022-ci il

№ 153

2.08.2022 / 11.691

**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ**
**Q Ə R A R № 339**

**Bakı şəhəri,** **3 avqust 2018-ci il**

Azərbaycan Respublikasının ərazisini tərk edən avtonəqliyyat vasitələrində daşınan yanacağın miqdarının tənzimlənməsi haqqında Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının ərazisini tərk edən avtonəqliyyat vasitələrinin mühərriklə texnoloji bağlı olan texniki pasportunda nəzərdə tutulmuş baklarının tutumunun miqdarından artıq keçirilən benzinin və (və ya) dizel yanacağının hər 1 (bir) litri üçün 0,6 ABŞ dolları məbləğində spesifik gömrük rüsumu alınır.

2. Bu qərarın 1-ci hissəsində göstərilən məbləğ avtonəqliyyat vasitəsinin mülkiyyətçisi və ya qanunvericiliklə müəyyən edilmiş qaydada idarəetmə hüququ olan şəxs tərəfindən gömrük-sərhəd buraxılış məntəqələrindəki gömrük orqanlarına bank, poçt və ya plastik kart vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının həmin gün üçün müəyyən etdiyi məzənnəyə uyğun olaraq manatla ödənilir.

**Azərbaycan Respublikasının Baş naziri**
**Novruz Məmmədov**

2.08.2022 / 11.691